


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 165 (24.302)

*9 sentyabr 2023-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

Qiyməti 30 qəpik


## Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 24 may tarixli 274 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Xüsusi təyinatlı təhsil müəssisələrinin siyahısı”nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 24 may tarixli 274 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 403, № 7, maddə 619; 2012, № 5, maddə 422, № 12, maddə 1233; 2014, № 5, maddə 483; 2016, № 9, maddə 1476; 2017, № 12 (I kitab), maddə 2307; 2021, № 2, maddə 123; 2022, № 3, maddə 213, № 12, maddə 1441) ilə təsdiq edilmiş “Xüsusi təyinatlı təhsil müəssisələrinin siyahısı”nın 4.4-cü bəndində “Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan” sözləri “Orta İxtisas Polis” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 8 sentyabr 2023-cü il*

## Naxçıvanda “Heydər Əliyevin kənd təsərrüfatının inkişafında rolu” mövzusunda tədbir keçirilib



Sentyabrın 8-də Naxçıvan Dövlət Milli Dram Teatrında “Heydər Əliyevin kənd təsərrüfatının inkişafında rolu” mövzusunda tədbir keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli tədbirdə çıxış edərək Naxçıvanda “Heydər Əliyev İli”nin müxtəlif silsilə tədbirlərlə geniş qeyd edildiyini diqqətə çatdırıb, bu gün keçirilən tədbir və “Aqrofestival”ı da bu baxımdan olduqca əlamətdar və əhəmiyyətli hadisə kimi dəyərləndirib.

Səlahiyyətli nümayəndə vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin siyasi irsi və dövlətçilik ənənələri xalqımız üçün mirasdır və biz ona hər zaman sahib çıxmalıyıq. Ümummilli Liderin rəhbər vəzifələrdə çalışdığı bütün dövrlərdə aqrar sektorun inkişafı iqtisadi islahatların başlıca hədəfinə çevrilib. Xüsusilə müstəqillik illərində ölkəmizdə ilk dəfə torpaq islahatına Ulu Öndərin rəhbərliyi ilə Naxçıvanda başlanıb, özəl mülkiyyətə əsaslanan aqrar münasibətlərin təməli qoyulub.





Qeyd edilib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin kənd təsərrüfatını yerli sektorun prioritet istiqaməti elan etməsindən sonra Azərbaycan Respublikasında aqrar sahə sürətlə inkişaf edib və biz bunun əlamətlərini Naxçıvan Muxtar Respublikasında da görürük.

Muxtar respublikanın kənd təsərrüfatının iqtisadiyyatın və əhalinin məşğulluğunun əsas sahəsi olduğunu diqqətə çatdıran Fuad Nəcəfli bildirib ki, ötən 30 ildə Naxçıvanda digər sahələr kimi, kənd təsərrüfatı sahəsində də dövlətin yaratdığı imkanlardan və göstərdiyi dəstəkdən səmərəli istifadə olunmayıb, sui-istifadə hallarına yol verilib. Cari ilin ötən dövründə bu sahədəki mövcud vəziyyət təhlil edilib, problemlər müəyyənləşdirilərək həllinə başlanılıb, torpaqların su təminatı ilə bağlı məsələlər diqqətdə saxlanılıb. Bundan başqa, kənd təsərrüfatı sistemində kadr islahatları həyata keçirilib, Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində strukturlaşdırma işləri aparılıb, “Orqanik Naxçıvan” publik hüquqi şəxsi, Regional Dövlət Aqrar İnkişaf mərkəzləri və digər qurumlar yaradılıb. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üzrə Dövlət Proqramı”nda kənd təsərrüfatının inkişafı ilə bağlı da mühüm vəzifələr müəyyənləşdirilib. Dövlət Proqramı çərçivəsində əkinçilik və heyvandarlığın mütərəqqi metodlarla inkişaf etdirilməsi, laboratoriya sistemlərinin yaradılması, heyvanların cins tərkibinin yaxşılaşdırılması, ənənəvi baramaçılığın və ipəkçiliyin inkişafı, Naxçıvan üçün spesifik ailə təsərrüfatı məhsullarının regionlaşdırılması və təşviqi konsepsiyasının hazırlanması, orqanik məhsulların müəyyənləşdirilməsi və təbliği, xarici bazara ixracının təşkil edilməsi, kənd təsərrüfatı məhsullarının emalı və qablaşdırılma sahələrinin inkişaf etdirilməsi, şəkər və nişasta istehsalı, kənd təsərrüfatı istehsalı vasitələrinin təminatının artırılması, aqroparkların yaradılması, yeni su nasos stansiyalarının tikilməsi, subartezian quyuların qazılması, kanalların çəkilməsi, su təminatının yaxşılaşdırılması, eləcə də ənənəvi suvarmadan mütərəqqi suvarmaya keçidin təmin edilməsi əsas hədəflərdəndir. Sözsüz ki, bu tədbirlərin görülməsi muxtar respublikada kənd təsərrüfatının inkişafına, məhsul artımına, ixrac potensialının formalaşdırılmasına şərait yaradacaq, ən əsası isə əhalinin özünüməşğulluq imkanları və rifahı yaxşılaşacaq, ərzaq təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verəcəkdir.

Səlahiyyətli nümayəndə tədbirin və Naxçıvan şəhərində ilk dəfə təşkil olunmuş aqrofestivalın iştirakçılarına uğurlar arzulayıb və təşkilatçılara təşəkkür edib.

Milli Məclisin deputatı, Aqrar Siyasət Komitəsinin sədri Tahir Rzayev “Heydər Əliyev İli” çərçivəsində keçirilən tədbiri Ulu Öndərin adına və fəaliyyətinə verilən yüksək qiymət, əziz xatirəsinə göstərilən dərin hörmət və ehtiram kimi dəyərləndirib. Millət vəkili çıxışında Naxçıvanda geniş sahibkarlıq mühitinin formalaşdığını və bu sahədə daha böyük potensialın olduğunu vurğulayıb. Bildirib ki, Ulu Öndərimizin ənənələrinin uğurla davam etdirildiyi Naxçıvan respublikanın ən sürətlə inkişaf edən bölgəsidir.



Kiçik və Orta Biznesin İnkişafı Agentliyi idarə heyətinin sədri Orxan Məmmədov Naxçıvanda ilk dəfə keçirilən “Aqrofestival”ın sahibkarlar üçün faydalı əməkdaşlıq imkanları yaratdığını bildirib, KOBİA xətti ilə muxtar respublikada həyata keçirilən tədbirləri diqqətə çatdırıb.

Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Xəyalə Dadaşova bu ilin ötən dövründə muxtar respublikada aqrar sahədə aparılan islahatlardan bəhs edib, həyata keçiriləcək layihələrdən danışıb.

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin aqrar islahatlarından bəhs edən videoçarx nümayiş etdirilib.

Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Asip Kaya türkiyəli investorların orqanik Naxçıvan məhsullarının istehsalına və ixracına xüsusi dəstək göstərməyə maraqlı olduqlarını diqqətə çatdırıb, Zəngəzur dəhlizinin reallaşdırılması fonunda əməkdaşlığın, eləcə də ticarət əlaqələrinin genişləndirilməsi baxımından daha böyük potensialın olacağını bildirib. Baş konsul növbəti aylarda türk iş adamlarından ibarət geniş heyətin Naxçıvana səfər edəcəyini və yeni layihələrin icrasına başlanılacağını diqqətə çatdırıb.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının idarəetmə mütəxəssisi Namiq Məmmədov isə bildirib ki, təmsil etdiyi ofis növbəti ildən Naxçıvanda fermerlərə dəstək layihələri icra edəcək, yerli orqanik məhsulların istehsalının artırılmasına töhfə verəcək.

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin sektor müdiri Ləman Əlizadə orqanik Naxçıvan məhsullarının brendləşdirmə fəaliyyəti barədə məlumat verib.

Tədbirdə “Orqanik Naxçıvan” loqotipi təqdim olunub, orqanik Naxçıvan məhsulları ilə bağlı animasiyalı video nümayiş etdirilib.

Bədii hissə ilə davam edən tədbirin ardınca Naxçıvanda qablaşdırılmış orqanik məhsullara baxış keçirilib.

Sonda xatirə fotosu çəkdirilib.

**“Şərq qapısı”**

## R.Z.Ələkbərlinin Naxçıvan Muxtar Respublikası rabitə və yeni texnologiyalar nazirinin müavini təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

### Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Rahid Zahid oğlu Ələkbərli Naxçıvan Muxtar Respublikası rabitə və yeni texnologiyalar nazirinin müavini təyin edilsin.

2. Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası Naxçıvan Muxtar Respublikası rabitə və yeni texnologiyalar nazirinin müavini Rahid Zahid oğlu Ələkbərliyə həvalə edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 8 sentyabr 2023-cü il*

## V.Ş.Sevdimaliyevin Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri vəzifəsindən azad edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

### Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vüsal Şəmsəddin oğlu Sevdimaliyev Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 8 sentyabr 2023-cü il*

## H.M.Novruzovun Naxçıvan Muxtar Respublikası rabitə və yeni texnologiyalar nazirinin müavini vəzifəsindən azad edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

### Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Həbib Məzahir oğlu Novruzov Naxçıvan Muxtar Respublikası rabitə və yeni texnologiyalar nazirinin müavini vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 8 sentyabr 2023-cü il*

## Yeni kadr təyinatları olub

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin idarəetmədə şəffaflıq və peşəkarlıq prinsiplərinə əməl edilməsi tələblərinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasında əsaslı struktur və kadr islahatlarının aparılması davam etməkdədir. Belə ki, daha peşəkar və layiqli kadrların irəli çəkilməsi məqsədilə bir sıra yeni kadr təyinatları olub.

Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun İdarə Heyətinə yeni kadr təyinatı olub. Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilovun imzaladığı müvafiq əmrə əsasən Nuhi Abbasəli oğlu Abdinov Dövlət Sosial Müdafiə Fondunun İdarə Heyəti sədrinin müavini vəzifəsinə təyin edilib.

Muxtar respublikanın icra hakimiyyətlərində də bir sıra kadr dəyişiklikləri olub. Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidovun imzaladığı Sərəncama əsasən icra başçısının müavini, icra hakimiyyəti İctimai-siyasi və humanitar şöbəsinin müdiri Təhminə Vilayət qızı Mustafayeva tutduğu vəzifədən azad edilib.

Sədərək Rayon İcra Hakimiyyəti başçısının müavini Əli Zeynalzadə, Şahbuz Rayon İcra Hakimiyyəti başçısının müavini Tural Quliyev, Kəngərli Rayon İcra Hakimiyyəti başçısının müavini Səriyyə Qurbanova da rayon icra hakimiyyəti başçılarının müvafiq sərəncamlarına əsasən tutduqları vəzifədən azad ediliblər.

**Xəbərlər şöbəsi**

## Naxçıvanda ilk dəfə "Aqrofestival" keçirilir



*Sentyabrın 8-də Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı ilə Naxçıvanda ilk dəfə keçirilən "Aqrofestival"ın rəsmi açılış mərasimi olub. Tədbir iştirakçıları əvvəlcə Ümummilli Liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, önünə gül dəstələri düzüb, dahi şəxsiyyətin əziz xatirəsinə ehtiramlarını bildiriblər. Heydər Əliyev Muzeyində Ulu Öndərin zəngin, mənalı ömür yolunu və müdrik siyasi fəaliyyətini əks etdirən eksponatlarla tanışlıq olub.*

Sonra "Sahil parkı"nda "Aqrofestival"ın rəsmi açılış mərasimi keçirilib. Mərasimdə çıxış edən Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Xəyalə Dadaşova qonaqları salamlayıb, Ulu Öndərin ölkəmizdə kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirdiyi tədbirlərdən danışıb. Qeyd edib ki, dahi şəxsiyyət 1969-1982-ci illərdə Azərbaycanı geridə qalmış aqrar regiondan qabaqcıl respublikaya çevirib, həmin dövrdə kənd təsərrüfatının bütün istiqamətləri üzrə dirçəliş prosesləri özünü göstərib, yeni fabriklər, zavodlar istifadəyə verilib, əkinçilikdə, heyvandarlıqda məhsuldarlıq artıb. Ümummilli Liderimiz Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda çıraq işığında qəbul etdiyi qərarlar, imzaladığı fərman və sərəncamlar ölkəmizi işıqlı sabahlara çıxarıb, aydın gələcəyə aparmaqdadır. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycanda ilk dəfə muxtar respublikada torpaq islahatı ilə başlanılan aqrar islahatlar bu gün ümumrespublikada kənd təsərrüfatı sahəsində böyük nailiyyətlərin qazanılmasına səbəb olub. Ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi aqrar strategiya nəticəsində Azərbaycan dünya kənd təsərrüfatı bazarına inteqrasiya olunub, ərzaq təhlükəsizliyinin təmininə, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə əlverişli imkanlar yaradılıb. Naxçıvanda ilk dəfə keçirilən "Aqrofestival"ın muxtar respublikanın kənd təsərrüfatı sahəsinə mühüm töhfələr verəcəyini diqqətə çatdıran Xəyalə Dadaşova festival çərçivəsində ölkəmizin digər regionlarından, eləcə də Türkiyə universitetlərindən gələn alimlərlə panel müzakirələrin aparılacağını vurğulayıb.



Açılış mərasimində Naxçıvan Dövlət Filarmoniyasının rəqs qrupu və "Şərur" Xalq Yallı Ansamblının ifasında yallı və rəqs nümunələri göstərilib.

Sonra "Aqrofestival"ın rəsmi açılışını bildirən rəmzi qırmızı lent kəsilib, qonaqlar sərgi ilə yaxından tanış olublar. Festivalda 45 şirkət və 55 ailə təsərrüfatçısı tərəfindən müxtəlif kənd təsərrüfatı texnikaları, toxum, gübrə, pestisid və digər istehsal vasitələrinin, o cümlədən kənd təsərrüfatı məhsullarının nümayişi və satışı həyata keçirilir. Həmçinin festivalda ölkəmizin digər regionlarından və xaricdən qatılan mütəxəssislər, iş adamları, elmi-tədqiqat institutlarının əməkdaşları da iştirak edirlər.

Festival çərçivəsində Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunun, "EMA" və "HUMİX" Məhdud Məsuliyyətli cəmiyyətlərinin nümayəndələrinin muxtar respublikanın kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən sahibkarlarla görüşü keçirilib. Görüşdə adıçəkilən şirkətlərin fəaliyyətləri haqqında məlumat verilib, qarşılıqlı müzakirələr aparılıb.

Festivalda iştirak edən rəsmi şəxslər muxtar respublikada kənd təsərrüfatının inkişafı sahəsində görülən işlər, eləcə də ilk dəfə keçirilən "Aqrofestival"ın əhəmiyyəti barədə fikirlərini "Şərq qapısı" qəzeti ilə bölüşüblər.



***Tahir Rzayev – Azərbaycan Respublikası Milli Məclisin deputatı, Aqrar Siyasət Komitəsinin sədri:*** – Naxçıvanda belə bir tədbirin keçirilməsi sözsüz ki, aqrar sektorun inkişafına xidmət edir. Bu, bir ənənədir. Ulu Öndərimiz ölkəmizə rəhbərliyi dövründə dəfələrlə belə tədbirlərin keçirilməsinə böyük önəm verərdi. Dahi şəxsiyyət regionlarda olardı, bu cür festivallar, məhsul bayramları keçirilərdi. Bu ənənə indi də davam edir. Biz bunu bu gün Naxçıvanda görürük. Əlbəttə ki, bu festival ölkə rəhbərinin həyata keçirdiyi aqrar siyasətin tərkib hissəsidir. Çünki bu gün bütün sahələrlə bərabər kənd təsərrüfatının da inkişafı diqqət mərkəzindədir və bu sahədə çox böyük tədbirlər həyata keçirilir. Bu tədbirlərin nəticəsi olaraq biz istər pambıqçılıqda, istər taxılçılıqda, heyvandarlıqda məhsuldarlığın artırılmasının şahidiyik. Bu da ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün çox vacibdir. Çünki ölkəmizin əhalisi ildən-ilə artır, bizim ərzaq məhsullarına, xüsusilə də heyvandarlıq məhsullarına olan tələbat yüksəlir. Belə olan halda kənd təsərrüfatı məhsullarının istehsalı mütləq artırılmalıdır. Ona görə də yeni texnologiyalar tətbiq edilir, yeni aqroparklar, yeni sənaye müəssisələri yaradılır ki, bu da bilavasitə ölkədə kənd təsərrüfatının inkişafı ilə əlaqədardır. Naxçıvanda şahidi oluruq ki, həqiqətən də, burada çox böyük işlər gedir. Naxçıvan Muxtar Respublikasının rəhbərliyi tərəfindən belə bir tədbirin keçirilməsi təqdirəlayiqdir. Çünki burada nəinki Naxçıvan sahibkarları, eləcə də respublikamızın bir çox iş adamları, o cümlədən xarici ölkədən gələn qonaqlar iştirak edirlər. Onların istehsal etdikləri məhsullar burada nümayiş olunur və həmin məhsulların istehsal prosesinin təkmilləşdirilməsi üçün müəyyən təkliflər irəli sürülür. Bunların öyrənilməsi də çox vacibdir. Burada biz taxıl məhsuldarlığını öyrəndik. Mən təəccüb etdim ki, doğrudanmı Naxçıvanda hər hektardan 95 sentner taxıl əldə edə bilərik? Bu, dünyada bir nümunədir. Fikrimcə, bu təcrübə yayılmalıdır. Nəinki Naxçıvanda, Azərbaycanın bütün sahibkarlıq təsərrüfatlarında bu tətbiq olunmalıdır. Bilirsiniz ki, bizim ərzaq buğdasına çox böyük ehtiyacımız vardır. Hər il biz kənardan 1 milyon 200 min ton ərzaqlıq buğda alırıq və dünyada gedən müharibələr, münaqişələr nəticəsində müəyyən iqtisadi əlaqələrin kəsilməsi bu gün bir qədər çətinlik yaradıb. Belə olan halda mütləq biz kənd təsərrüfatının inkişafına, müasir texnologiyanın, suvarma sisteminin tətbiqinə önəm verməliyik. Əlbəttə ki, bu "Aqrofestival" alqışa layiq bir tədbirdir və mən tədbir iştirakçılarına uğurlar arzulayıram.





***Manuela Traldi – İtaliya-Azərbaycan Ticarət Palatasının (İTAZERCOM) prezidenti:*** – İlk dəfədir ki, mən kənd təsərrüfatı festivalında iştirak edirəm. Tədbir çərçivəsində Naxçıvanla tanış oldum və İtaliya ilə Naxçıvan arasında kənd təsərrüfatı sahəsində yeni əlaqələr yaratmağa çalışdım. Festival məndə çox müsbət təəssürat yaratdı. Mənə bu şəraiti yaradanlara hədsiz minnətdaram. Şərəf duyuram ki, festivalın açılışında iştirak etdim, ərzaqların, mineral suların və digər məhsulların şəklini çəkdim, onları potensial əlaqələr yaranması üçün italiyalı iş adamlarına təqdim edəcəyəm. Çalışacağam ki, hər iki tərəfin iş adamları arasında texniki informasiya mübadiləsi qurulsun. Düşünürəm ki, İtaliya ilə Naxçıvan arasında, xüsusilə də kənd təsərrüfatı texnikaları, maşın-mexanizmləri ilə bağlı potensial əlaqələr qurula bilər. İnanıram ki, bu əməkdaşlıq uğurlu olacaqdır. Çünki İtaliya və Azərbaycanın geniş əlaqələri vardır. Əminəm ki, şirkətlər qarşılıqlı əməkdaşlıq şəraitində əlaqə saxlayacaqlar və biz Naxçıvanda kənd təsərrüfatının inkişafına yaxından köməklik edə biləcəyik. Hesab edirəm ki, İtaliyanın, xüsusilə də orqanik kənd təsərrüfatı sahəsində çox mükəmməl bilikləri və təcrübəsi vardır. Biz artıq bəzi məhsulların, məsələn, pomidorun İtaliya bazarında realizasiyası məsələlərini araşdırmağa başlamışıq və bu araşdırmalar davam edəcəkdir.



*Qeyd edək ki, "Aqrofestival" sentyabrın 9-da bitəcək. Son gün yerli və xarici şirkətlərin nümayəndələri, elmi-tədqiqat institutlarının əməkdaşları arasında panel müzakirələrin aparılması nəzərdə tutulur.*

**✍ Nail ƏSGƏROV**

## "Azsığorta"nın Naxçıvanda filialı fəaliyyətə başlayıb




*Ölkənin aparıcı sığorta şirkətlərindən olan "Azsığorta" ASC-nin Naxçıvanda rəsmi filialının açılışı olub. Filialın açılış mərasimindən öncə şirkətin əməkdaşları Heydər Əliyev Muzeyini ziyarət ediblər, dahi rəhbərin çoxşaxəli fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar.*

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin əməkdaşı Pənah Mehdiyev açıb, sığorta şirkətlərinin ölkəmizin iqtisadi-siyasi, sosial həyatındakı uğurlarından danışıb. Diqqətə çatdırılıb ki, ölkəmizdə belə sığorta şirkətlərinin olması və filialların açılması sahibkarlıq və biznes subyektlərinin, kapital və əmlak sahiblərinin daha etibarlı şəkildə fəaliyyət göstərməsini təmin edir, istehsal və kommersiya əməliyyatlarının, həmçinin sığorta şirkətlərinin genişlənməsinə şərait yaradır, əlavə investisiyaların yatırılmasını mümkünləşdirir. Dünya təcrübəsində bu kimi məsələlər daim diqqət mərkəzindədir və iqtisadi fəaliyyətin sığortalanması, sığorta şirkətlərindən fəal istifadə edilməsi bu mexanizmə güclü şəkildə önəm göstərilməsi əsas məsələlərdən hesab edilir.

Pənah Mehdiyev qeyd edib ki, ölkə başçısı cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamı muxtar diyarımızda iqtisadiyyatın, biznes əlaqələrinin, kiçik və orta sahibkarlığın inkişafına öz töhfəsini verəcəkdir. Belə ki, Dövlət Proqramının icrası istiqamətində həyata keçirilən tədbirlər 11 prioritet istiqamətdən və 81 tədbir proqramından ibarətdir ki, bu da muxtar respublikanın ictimai-sosial, iqtisadi həyatının günün tələbləri səviyyəsində qurulmasında, inkişaf edib yenilənməsində müstəsna rola malikdir. Həmçinin sözügedən tədbirlərin həyata keçirilməsini konkret müəyyənləşdirən alttədbirlər də müəyyən olunmuşdur ki, onların da yaxın zaman ərzində təsdiq edilməsi gözlənilməkdədir. Bu sahədə əhalinin rahatlığına xidmət edəcək sığorta şirkətlərinin yaradılması da prioritet istiqamətlərdən biri sayılır. Belə ki, ölkəmizdə azad, müstəqil sahibkarlıq subyektlərinin yaradılması, bu sahədə yeni biznes uğurlarının əldə edilməsi, həmçinin sahibkarlar arasında rəqabətin formalaşması fikirlərimizin əyani sübutudur.

Şübhəsiz ki, bu gün Naxçıvan şəhərində "Azsığorta"nın yeni filialının açılması da ölkəmizin, eləcə də muxtar diyarımızın iqtisadiyyatına böyük töhfələr verəcək.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublika İdarəsinin rəisi Elçin Əliyev diqqətə çatdırıb ki, ölkəmizdə sığorta şirkətlərinin fəaliyyətə başlaması, habelə regionlarımızda yeni filialların yaradılması iqtisadiyyatın aparıcı sahələrindən biri hesab olunur. Həmçinin "Azsığorta" şirkətinin yeni filialının Naxçıvanda açılması da diyarımızda sosial-mədəni həyatın formalaşmasına, insanların rahatlığına müsbət yöndə təsir edəcək.

Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı naziri vəzifəsini müvəqqəti icra edən, nazir müavini Xəyalə Dadaşova, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri Tapdıq Əliyev çıxışlarında sığorta şirkətlərinin ölkəmizin iqtisadi-sosial həyatına verəcəyi töhfələrdən bəhs edib. Çıxış edənlər ölkəmizdə olduğu kimi, muxtar respublikamızda da iqtisadi əlaqələrin, sahibkarlıq subyektlərinin düzgün formalaşmasının zərurətini diqqətə çatdırıblar.

Vurğulanıb ki, Dövlət proqramları çərçivəsində görülmüş işlər Naxçıvan Muxtar Respublikasının qarşıdakı illərdə də inkişafı üçün geniş imkanlar yaradıb. Hazırda bu imkanlardan istifadə edilməklə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi həyatında, o cümlədən kənd yerlərində iqtisadi fəaliyyətin sürətlənməsi, əlverişli biznes mühitinin formalaşması, investisiyaların cəlb edilməsi nəticəsində ixracyönlü dəyər zəncirinin qurulması və dayanıqlı iş yerlərinin yaradılması istiqamətlərində işlərin yeni keyfiyyət mərhələsinə keçməsi əsas prioritetlərdən birinə çevrilib. Bu isə, öz növbəsində, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı ilə əlaqədar tədbirlərin, həmçinin kompleks proqramların hazırlanmasını və icrasının davam etdirilməsini nəzərdə tutur.

"Azsığorta" şirkətinin Direktorlar Şurasının sədri Viladi Maniyev Naxçıvan şəhərində məskunlaşan müştərilərə daha yaxın olacaqları və peşəkar xidmətləri təqdim edəcəkləri üçün məmnunluğunu ifadə edib. Vurğulayıb ki, regional ofislərin sayını artırmaq və əhaliyə daha keyfiyyətli xidmət göstərmək "Azsığorta"nın inkişaf strategiyasında qarşıya qoyulan mühüm hədəflərdən biridir. Viladi Maniyev əminliyini bildirib ki, Naxçıvan filialının açılışı bu istiqamətdə önəmli rol oynayacaq.

Daha sonra açılış tədbirini simvolizə edən qırmızı lent kəsilib və sığorta binasında yaradılan müasir şəraitlə tanışlıq olub.

Qeyd edək ki, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1 ünvanında yerləşən yeni filial müştərilərə yüksək səviyyədə keyfiyyətli xidmət göstərmək üçün bütün zəruri şəraitə və imkanlara malikdir. Filial ənənəvi olaraq həftənin 5 günü saat $9^{00}$-dan-$18^{00}$-dək fəaliyyət göstərəcək.

**Məcid RƏŞADƏTOĞLU**

## Görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilib



Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında keçirilən iclası giriş sözü ilə açan Şuranın sədri Qəzənfər Abdullayev bildirib ki, son 8 ayın yekunlarına nəzər salsaq, görərik ki, ötən dövr Həmkarlar İttifaqları Şurasının fəaliyyəti uğurlu hadisələrlə yadda qalıb. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə bağlı Şura yığıncaqlar keçirib, ittifaq üzvlərini işçilərin əmək və hüquqi mənafelərini tənzimləyən bir çox müddəalar və hüquqi aktlar haqqında məlumatlandırıblar.

Qeyd olunub ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının İcraiyyə Komitəsinin 28 aprel 2023-cü il tarixli məktubuna uyğun olaraq muxtar respublikamızda yaşayan 2700 aztəminatlı, şəhid və qazi ailələrinə 245.768 manat dəyərində ərzaq sovqatı verilib. Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Şuranın dəstəyi ilə Naxçıvan Muxtar Respublikasında Gənc Heydərçilər üçün yay istirahət düşərgələri təşkil edilib. Ağbulaq İstirahət Mərkəzində təşkil olunan "Yay düşərgəsi"ndə xüsusi qayğıya ehtiyacı olan ailələrin uşaqları, o cümlədən şəhid, qazi, hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş, tək valideynli 44 uşağın istirahəti təşkil edilib. Daha sonra isə gənc idmançılar üçün "Yay düşərgəsi" təşkil olunub. Bu proqramlarla yanaşı, hər həftənin şənbə və bazar günləri muxtar respublikanın nazirlik və komitələrinin, dövlət qulluqçularının və ailə üzvlərinin mütəmadi olaraq istirahətləri həyata keçirilməkdədir.

Şuranın sədri qeyd edib ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının dəstəyi ilə Şura tərəfindən Qurban bayramı münasibətilə muxtar respublikada yaşayan şəhid, qazi, ahıl, aztəminatlı 1250 ailəyə ümumi dəyəri 118000 manat məbləğində olan sovqat yardımı göndərilib.

2023-cü ilin ötən dövrü ərzində Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası aztəminatlı və xüsusi qayğıya ehtiyacı olan 242 ailəyə ümumi dəyəri 54300 manat məbləğində maddi yardım göstərib.

Bəhs olunan dövrdə "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu"na 50000 manat məbləğində vəsait köçürülüb.

Diqqətə çatdırılıb ki, Həmkarlar İttifaqları Şurasının iş strukturunda da müsbət dəyişikliklər aparılmış, yeni kadrlar işlə təmin olunmuşlar. Bildirilib ki, Ağbulaq İstirahət Mərkəzi, Ağbulaqda yerləşən Xizək Mərkəzi, Culfa rayonunda yerləşən "Darıdağ Arsenli Su Müalicə Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti və tikintisi başa çatmaqda olan "Darıdağ" arsenli su müalicə kompleksi, Darıdağ sanatoriyası Şuranın balansına keçirilib. Buna uyğun olaraq da yaxın gələcəkdə istirahət guşələrimizin sayını artırmaq üçün yeni düşərgələr açılacaq.

Şuranın sədri qeyd edib ki, bu gün muxtar respublikada insanların sağlamlığının qorunması, onların müalicə və müayinəsinin yüksək səviyyədə təşkili istiqamətində tədbirlər həyata keçirilir. İttifaq üzvlərinin sağlamlığının qayğısına qalınması da daim diqqətdə saxlanılır. Onların, eləcə də 26 şəhid ailəsinin müxtəlif sanatoriyalarda müayinəsinin, müalicəsinin və istirahətinin qayğısına qalınır.

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası tərəfindən 100 nəfər məktəbli uşağa ümumi dəyəri 10 000 manat məbləğində maddi yardım ayrılıb.

Sonda AHİK-in yaranmasının 30 illik yubileyi münasibətilə 10 nəfər ittifaq üzvü "AHİK-in 30 illik Yubiley" döş nişanı və pul mükafatı ilə təltif olunub.

**Ceyhun MƏMMƏDOV**

## Mədənçilik və enerji sektorunda çalışan türkiyəli sahibkarlarla görüş



Naxçıvan Şəhər İcra Hakimiyyətində keçirilən görüşdə Naxçıvan Muxtar Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini, nazir vəzifələrini icra edən Xanlar Mustafayev muxtar respublikanın mədən ehtiyatları haqqında məlumat verib. Qeyd olunub ki, Naxçıvan zəngin təbii ehtiyatlara malikdir. Bunlardan filiz və qeyri-filiz yataqları investisiyalar üçün cəlbedicidir. Ümumilikdə, 66 yataqdan 11-nin filiz, 55-nin isə qeyri-filiz yataqları olduğunu bildirən Xanlar Mustafayev bu yataqların 30-nun texniki qiymətləndirilməsinin tamamlandığını bildirib.

Vurğulanıb ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda muxtar respublikanın təbii ehtiyatlarından istifadə potensialının artırılması, potensial xammal ehtiyatlarının müəyyən edilməsi və təbii sərvətlərin iqtisadi dövriyyəyə cəlbi ilə bağlı bir çox məsələlər qarşıya qoyulub.

Muxtar respublika ərazisində mövcud olan təbii ehtiyatların yataqları haqqında ətraflı məlumatlar tədbir iştirakçılarına təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev çıxışında bildirib ki, Naxçıvan həm də bərpa olunan enerji mənbələri ilə zəngin diyardır. Hazırda Naxçıvan özünü tamamilə elektrik enerjisi ilə təmin edir. Mövcud potensial isə muxtar respublikada günəş və külək elektrik stansiyalarının qurulmasına geniş imkanlar açır və yaxın gələcəkdə tələbatın ödənilməsi tamamilə bərpa olunan enerji hesabına olacaqdır.

Qeyd olunub ki, aparılan ilkin qiymətləndirilmələrə görə, muxtar respublikada 1500 meqavatlıq günəş elektrik stansiyalarının inşası nəzərdə tutulur. Artıq 650 meqavatlıq günəş elektrik stansiyalarının qurulması üçün müqavilələr imzalanıb. Eyni zamanda muxtar respublikada təcrübə məqsədilə ilkin külək elektrik stansiyası da qurulub və bu sahədə də potensial var. Naxçıvanda bərpa olunan enerji mənbələri buradan "yaşıl enerji"nin Türkiyəyə və Avropaya ötürülməsinə yeni imkanlar açır.

Vurğulanıb ki, dövlət başçısı tərəfindən imzalanmış "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda muxtar respublikanın enerji potensialından istifadə, eləcə də bu sahəyə yeni investisiyaların cəlbi qarşımıza tapşırıq olaraq qoyulub. İnanırıq ki, türkiyəli sahibkarlar Naxçıvanın enerji potensialının dəyərləndirilməsində yaxından iştirak edəcəklər.

Sonra müzakirələr aparılıb.

**Səbuhi HƏSƏNOV**

## ENACTUS komandası 2023 *"Enactus Azərbaycan"* Milli Yarışının qalibi olub



Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən Azərbaycan Respublikasının Gənclər Fondu, Azərbaycan TələbəGənclər Təşkilatları İttifaqı, "Gənclərin Maarifləndirilməsinə Dəstək" İctimai Birliyi və "Enactus Azərbaycan"ın birgə tərəfdaşlığı və BP Azərbaycan şirkətinin baş sponsorluğu ilə keçirilən 2023 Enactus Azərbaycan Milli Yarışının final mərhələsində Naxçıvan Dövlət Universitetinin ENACTUS komandası I yerin sahibi olub.

Xatırladaq ki, final mərhələsinə vəsiqə qazanan 6 komandanın: Naxçıvan Dövlət Universiteti, ADA Universiteti, Azərbaycan-Fransız Universiteti, Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Gəncə Dövlət Universitetinin iştirak etdiyi yarışa Naxçıvanın ali təhsil ocağı ENACTUS komandası "Zeropollution", "Termobee" layihələri ilə qatılmışdı.

Məlumat üçün bildirək ki, Naxçıvan Dövlət Universitetinin ENACTUS komandası oktyabr ayında Niderland krallığının Utrext şəhərində keçiriləcək dünya çempionatında Azərbaycanı təmsil edəcək.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Vətəndaş məmnunluğunun təmin edilməsinə dair tədbir keçirilib

*Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Səhiyyə Nazirliyi ilə birgə "Doğum və ölüm haqqında tibbi şəhadətnamələrin verilməsi qaydaları" mövzusunda tədbir keçirib.*



Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının "Tibb Müəssisələrinin İdarəetmə Birliyi" publik hüquqi şəxsin Müşahidə Şurasının sədri Ləman İbrahimova açaraq tədbirin keçirilməsinin məqsədi və əhəmiyyəti barədə məlumat verib.

Sonra Səhiyyə Nazirliyinin sektor müdiri Kəmalə Həsənova "Ölüm və doğum haqqında tibbi şəhadətnamələrin verilməsi qaydaları"na dair qanunvericiliyin tələblərini diqqətə çatdırıb. Çıxışında ölüm hadisəsi kənd və qəsəbə yerində baş verdikdə və ölüm hadisəsi kənd, qəsəbə istisna olmaqla yaşayış yerində baş verdikdə tibbi şəhadətnamələrin verilməsi qaydası, ölümün başvermə səbəbi məlum olan hallarda tibbi şəhadətnamələrin verilmə qaydası, eyni zamanda tibbi şəhadətnamələrin patoloji-anatomik və ya məhkəmə-tibbi müayinə aparan tibb müəssisəsi tərəfindən verilməsi qaydaları barədə ətraflı məlumat verib.

Ədliyyə Nazirliyinin Hüquqi şəxslər və vətəndaşlıq vəziyyəti bölməsinin rəisi vəzifəsini müvəqqəti icra edən Reyhanə Əsgərova "Doğum və ölüm haqqında tibbi şəhadətnamələrə əsasən doğum və ölümün qeydiyyatı zamanı yaranan problemlər və qanunvericiliyə əsasən problemlərin həlli qaydaları" mövzusunda çıxış edib.

Tədbirdə iştirakçıları maraqlandıran suallara aydınlıq gətirilib.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

# Kitabsız kitabçılar, kütlə psixologiyasının qurbanları, əsrimizin Novruzəliləri!!!



*Bəzən əlimiz ürəyimizin ayaq izinə toxunaraq bizi sentimental aləmə, kitab aləminə aparır. Nə üçün sentimental dedik? Çünki dövrümüzdə “kitab adamlar” kitab oxuma vərdişləri sentimentallaşaraq utopik məna yükü daşımaqdadır. Lakin mütaliə mədəniyyətinin incəliklərinə vardıqda, habelə kitab oxuma vərdişini, bütövlükdə, dərk etdikdə, görürük ki, kitab təmas istəyir, kitab diqqət istəyir, kitab hər səhifəsində can verib can almaq istəyir, oxumaq isə bizə yalnız olmadığımızı hiss etdirir. Eyni düşüncədə, eyni ruhda insanlarla təmasımızı təmin edərək bilmədiklərimizi öyrədir. Görəsən, bizi də kitab kimi cildə büküb sonuncu mənzilə yola salacaqlar? Bu an səsi gəlir Füzulinin, Nəsiminin, xalqımızın şüuruna maarifçilik toxumu əkən Zərdabinin, Sidqinin. Haray salır Arazın o tayında Səməd Behrəngi, Sibirin soyuğunda “Mənim Tanrım gözəllikdir, sevgidir”, – deyən Cavid, Təbrizin dumanında Günəş olan Ordubadi. “Demək ölən yox olmur” sözləri yaşayırsa, milli şüur yaşayır deməkdir.*

Bizdən əvvəl və sonra var olan, dil-dodaqla dərilən sözün ləzzətidir kitab. Allahın kəndirinin bir ucu bu kitablarda gizlidir. Biz də möhkəm sarıldıqca bu kəndirə, qalxarıq Uca Yaradanın layiq bildiyi yerə. Oxumasaq, nə bilərik “Ölçülüb biçilərsə, incə fikir, incə söz, Nə qədər gözəlləşər, olar ürəyincə söz”, – deyən Şeyx Nizami “Sirlər xəzinəsi”ndə Allahın ədəbi ilə ədəblənməyimizi, biliklə, hünərlə ölümsüz olmağı bizə tövsiyə etdiyini. Oxumasaq, nə bilərik “Könlüm quşu qanad çalmaz, sənsiz bir an Azərbaycan”, – deyən Şəhriyar bizə Vətən eşqi məktəbində can verməyi arzuladığını. Oxumasaq, nə bilərik “Ah mən gündən-günə bu gözəlləşən, işıqlı dünyadan necə əl çəkim”, – deyən istibdad şairi Müşfiqin, ömrünün 29-cu qışında Dilbərinin gözündən gilə-gilə düşdüyünü. Oxumasaq, nə bilərik “Qərb cəbhəsində təbəddülat yoxdur” əsərində Remarkın “Mən hələ də bizim üçün ölümə səbəb olan xərçəng, vərəm, qrip, dizenteriyadan da ölümcül olan müharibənin qanlı səngərlərində çabalamaqdayam” dediyini. Oxumasaq, nə bilərik orta məktəbi bitirə bilməyən ABŞ-ın 16-cı prezidenti Avraam Linkolnun cəmi 2 səhifəlik məktubunda valideynin övladını tərəddüdsüz etibar etdiyi yeganə şəxsin müəllim olduğunu. Oxumasaq, nə bilərik Mustafa Kamal Atatürkün “Ağ zanbaqlar ölkəsi”ndə kitabını hərbi məktəblərdə stolüstü kitab olaraq oxunmasına göstəriş verməsini. Oxumasaq, nə bilərik Zeydin bir küncdə inzivaya çəkilərək Leylinin Məcnununa xısın-xısın ağladığını, Cek London “Həyat eşqi”ni yaşamaq uğrunda mübarizədə gördüyünə inanmayıb, idrakla hesablaşmadığını, bəlkə də, bəşəriyyətin cövhəri sayılan insanın ömür yolunda özünə heç olmazsa, bir dəfə verəcəyi, verməyə məcbur olduğu sualdır bu. Həqiqətən, oxumasaq, nə bilərik? Bu sualın ətrafında fikir mübadiləsi edə-edə bir neçə kitab dükanına yol alırıq. Şəhərimizdə bədii ədəbiyyatların satışını təşkil edən kitab mağazalarında, elə kitab rəflərinin qarşısında davam etmək istəyirik söhbətimizə. Bu əsrarəngiz şəhərin sakit parkları, avtomobillərin səssizcə hərəkəti necə də həvəs verir insana, çəkilib bir kənarda, təbiətin qoynunda mütaliə etməyə səsləyir sanki bizi. Əllərindəki mobil telefonların qaranlıq aləminə qapılıb, başlarını yuxarı qaldırmayan, müasir dövrün “başıaşağı gəncləri”, axı nə üçün maraqsız, faydasız sosial şəbəkələrin “cazibəsi” bu qədər ovsunlayıb sizi, daha doğrusu, əksəriyyətinizi? Bir bax, diqqətlə bax, budur, oyun klublarından çıxan 5-10 nəfər gəncin “bəlkə, bir əl pes ataq” dediyinin şahidi olduğumuz halda, ondan bir neçə qədəm aralıda yerləşən kitab mağazasının isə qulaqbatıran fəryadının səssizliyi duyulur. Necə də qəribədir bu mənzərə. İnsan bəzən həyatda bir çox fürsətləri əldən buraxır. Kitabsız, mütaliəsiz keçirdiyi hər gün kimi.

*– Bəs sonra necə olur nəticəsi, Fariz müəllim?*

– Məcid, “Mətta effekti” deyilən bir termin var. Orada Matta 13:12 Bibliya ayəsinə istinad edilərək deyilir: “Kimdə varsa, ona daha çox veriləcək bolluğa qovuşdurulacaq. Amma kimdə yoxdursa, sahib olduqları da əlindən alınacaq”. Bu yanaşma maddi olduğu kimi, həm də mənəvidir. Gənc yaşlarından başlayaraq müntəzəm kitab oxuyan insanlar effektiv ünsiyyət qurma bacarığına malik olur, təxminən, gün ərzində 30 dəqiqə mütaliə etmək qavrama qabiliyyətini artırır, başqaları ilə ünsiyyət qurmağa imkan verir, normal yuxu rejiminə kömək edir, stresi azaldır, qan təzyiqi və ürəyin fəaliyyətini yaxşılaşdırır, depressiya əlamətləri ilə mübarizə aparır, yaşlandıqca koqnitiv geriləmənin qarşısını alır və daha mənalı, daha uzun ömür sürməyə töhfə verir.

– Doğrudur, bu mövzuda sizinlə razılaşıram, əziz həmkarım. Hətta Çingiz Aytmatovun “Kassandra damğası” əsərində deyilir ki, uşaqlar dünyaya gəlməkdən, yaşamaqdan, həyatdan qorxur. Çünki yaşamın əsrarəngiz rəngləri olan kitabın sirlərini əldən verdikdən sonra itirdiklərindən gileylənir, fərqində olmadan bu anını hədər verir, unudur. “İnsan – keçmişin həsrətini çəkən, gələcəyi üçün darıxan, yaşadığı andan şikayət edən varlıqdır” söyləyirdi Çarlz Bukovski. Deyəsən, bu hikmətli fikrin üzərindən ötüb keçən zaman yalnız cansız əşyaları dəyişməyə qadir olub, insanların böyük əksəriyyəti isə elə öz xislətindədir...



Uzun və maraqlı keçən söhbətimizə ilk daxil olduğumuz kitab mağazasında davam edirik. Mağazaya daxil olduğumuzda dünya təcrübəsindən fərqli olaraq növbənöv ətir çeşidlərinin, bijuteriyaların yer aldığı guşə “salamlayır” bizi. Sözün açığı, paytaxt Bakıda öz oxucularına xidmət göstərən “Əli və Nino”, “Libraff” və digər böyük kitab mağazalarında mənzərə bu cür deyil. Yəni kitab mağazalarından yalnız və yalnız kitab əldə etmək olar, qeyrisi mümkün deyil. Lakin daxil olduğumuz bu ünvanda görünən odur ki, məqsəd yalnız kitab satışını həyata keçirmək deyil. Burada saat, ətir, eynək, hətta bəzək əşyaları belə əldə etmək mümkündür. Çox təəssüf ki, real mənzərə eynilə belədir. Yenə də şükür edirik ki, burada enerji içkiləri, tütün məmulatları və ərzaq malları satılmır, yoxsa insanlar kitab mağazalarında uzun növbədə durmalı olardılar!

Mağazanın müxtəlif hissələrində bir böyük və iki kiçik kitab rəfi yerləşir. Böyük rəflərdə yer tutan, bəlkə də, minə yaxın kitabın hər biri ya türk ədəbiyyatı nümunəsidir, ya da xarici ölkələr ədəbiyyatından türk dilinə tərcümə edilmiş kitablar. Ən başdakı kiçik kitab rəfində isə Azərbaycan ədəbiyyatı nümunələri oxucularını gözləyir. Bu guşədə isə kitabların sayı iki yüzü keçə, ya keçməyə.

Diqqətlə müşahidə edirik milli ədəbiyyatımızın bənzərsiz nümunələrini. Hələ min illər əvvəl Allahın insanlığa ərməğan etdiyi ən böyük nemətin – sözün qiymətini bilib ona böyük dəyər qazandıran dahilərimizin pıçıltısını, “Vəfa mənzilidir ən yaxşı mənzil” deyərək gənclərə nəsihət verən Xaqaninin təvazökarlığını, “Qılınc və Qələm”in qüdrətini, Cahandar ağanın “kişi” andına sədaqətini.

Xalqımızın tarixini, milli mənliyini yaddaşlara köçürən doğma ədəbiyyatımız, əbədi həyatımız, sən necə də doğmasan, əzizsən hər birimizə. Elə bu zaman sirli-sehrli dünyadan Narginin səssiz pıçıltısı eşidilir. Yox, yox, bu, pıçıltı deyil. Bu, hüznlü və qürurlu Narginin hayqırtısıdır. İmdad hayqırtısı. Bu, türkə məzar olan Narginin göz yaşlarıdır, həm kədəri, həm qədəri birləşdirən məkanın qara taleyi, qaranlıq üzüdür. “Nargin – saralmış kədər” kitabı tarixə tutulan həqiqət işığıdır. Bu sıralarda yer tutan Mirzə Kazım bəyin seçilmiş əsərlərindən ibarət ədəbi toplu da var. Müsəlman Şərqində ilk “Demidov” mükafatına layiq görülən ziyalı sözlərinin təravəti və tarixin reallıqları hopub bu əsərlərə. Onları oxuyub mütaliə edənlər bilər Mirzə Kazım bəyin və onunla bərabər xalqımızın maarifi, işıqlı sabahı yolunda çəkilən zəhməti və fədakarlıqları. Kitabsevərlər bütün vücudu ilə duyar bu ədəbi topluların nədən danışdığını, nə söylədiyini. Bəs qəlbi sinədəftər olub sözünü çatdıra bilməyən həmişəyaşarlar necə? Əsərləri kitabsevərlər tərəfindən axtarılan, amma tapılmayan əbədiyaşarlar necə? Axtarır gözümüz onları! Haradasan, Qara dənizdən Azərbaycanına boylanıb baxan, haqq sədası məğribdən ta məşriqə çatan Əhməd Cavadımız, qəribliyin hüznü və boğulmayan səsi olan Vətən həsrətli Almas İldırımımız, ey Təbrizi Təbrizlə qol-qanad görmək arzusuyla alışıb yanan Ulu Türkümüz. Gözümüz sizi axtarır kitabların sirli-sehrli dünyasında. Gözümüz axtarır öz sevdiyini əlçatmaz ucalıqda görən, ona “Çiçək olsan, dərib dəstə bağlardım, dərdiyimçün həsrətimdən ağlardım” söyləyən Mirvarid Dilbazinin söz çələngini, gözlərinin nuru ilə ərsəyə gətirdiyi qızıl qönçələrə öz acı taleyini toxuyan Ənvər Məmmədxanlının Sürəyyasını, vəfası, fədakarlığı ilə əbədi həyata qovuşan “Qaraca qızın” nakam həyatını, sevgilərini bir-birlərindən gizlədib daş körpü ilə tarixə yazan “Körpüsalanlar”ın Səriyyəsini. Haradasan ey kiçik hekayələrin böyük ustadı, hər hekayəsi özündə böyük mənaları əks etdirən Mirzə Cəlil yaradıcılığı? Məgər bu qədər əsərlər içərisində yer tapılmadımı sənin həqiqətlərinə? O həqiqətlər ki hər biri qəlbimizdəki fərqli düşüncələrə, duyğulara işıq tutur. Dədəmiz Qorqudun söylədiyi gəlimli-gedimli, bir ucu ölümlü dünyanın ədalətsizliyi, sərt üzü, nadanlığı, yaxşılığı, yamanlığı sənin yaradıcılığında sətir-sətir həkk olunur. İnkar etməkmi olar bu gün də öz reallığını qoruyub saxlayan acı həqiqətləri? Usta Zeynalın Vətən sevgisini, Məhəmmədhəsən əminin saflığını, saqqallı uşağın çöhrələrdə gülüş yaradan avamlığını, Novruzəlinin sədaqətini? Zeynəb xanımların ölümü alçaldıcı həyatdan üstün tutması, Qurbanəli bəylərin maddi dünyanın yaxşı, amma utancverən üzü ilə qarşılaşıb, xar olmaları keçmişimizin acı həqiqətləri deyilmi?! Bax bunlardan ibrət almaq üçün gözümüz hey axtarır səni, ustad. Bəs nəticə necə oldu səni axtardığımız kitab dükanlarında? “Bizdə Mirzə Cəlil yoxdur, Cəlil Məmmədquluzadə var” deyənlər də oldu, “ikisi də yoxdur” deyənlər də. Tapa bilmədik sizi bu rəngarəng dünyadakı kitablar arasında. Kimdən soraqlaşdıqsa, axtardıqsa, yoxdur...yoxdur...yoxdur cavabını eşitdik.

Ünvandan ayrılıb söhbətimizə davam edə-edə növbəti kitab mağazasının yolunu tuturuq. İlk daxil olduğumuz mağazada istərdik ki, haqqında danışdığımız, adlarını çəkdiyimiz mənəviyyat dünyamıza işıq saçan ədəbiyyatlarımızla bərabər, Əbdürrəhim bəy Haqverdiyevin, Nəcəf bəy Vəzirovun, Seyyid Əzim Şirvaninin, Mirzə Fətəli Axundovun, Mirzə Ələkbər Sabirin, Almas İldırımın, Abbas Səhhətin, Abdulla Şaiqin, Məhəmmədhüseyn Şəhriyarın, Məmməd Arazın və digər böyük şair və yazıçılarımızın seçilmiş əsərləri də olsun. Ancaq çox, təəssüf ki, bu gün muxtar respublikamızın kitab mağazalarında ya sifarişlə yazılan, ya şəxsi “həyat tarixçəsi”ndən danışan, ya da dedektiv janrında bayağı əsərlər yazan, tək məqsədi isə bununla gəlir əldə etmək olan “yazıçı” kitabları rəflərin bəzəyinə çevrilib. Bəlkə də, maraq dairəsi dedektiv janrında əsərlər olan bir gəncə Azərbaycan ədəbiyyatının ilk dedektiv əsəri hansıdır sualını versək, Cəmşid Əmirovun “Qara Volqa” əsərini tanımayacaq. Əminik ki, böyük bir qismi müasir dövrümüzün bir neçə başdansovdu yazarının adını çəkəcək. Çünki müşahidələr onu göstərir ki, bu cür kitabsevərlərin əksəriyyəti kütlə psixologiyası dediyimiz situasiya ilə hərəkət edir. Nəticədə, kriminal ədəbiyyat oxumağa maraq göstərib, milli ədəbiyyatımızın sirlərindən uzaq düşürlər. Hətta söhbət zamanı elə məqamlardan bəhs edib, elə mətləblərə toxunurlar ki, “Poçt qutusu”nun Novruzəlisi onların yanında avam yox, dahi olur. Bəs əvəzində nə oxuyurlar? Məqsədi, məramı pul olan bayağı roman sahiblərinin “ultrabənövşəyi macəraları”nı. Yeri gəlmişkən, qeyd edək ki, “Qara Volqa” əsəri Cəmşid Əmirov tərəfindən keçmiş sovet idarəçiliyinin tüğyan etdiyi bir dövrdə, Dövlət Təhlükəsizlik Komitəsinin arxiv sənədləri əsasında yazılmış və cəmiyyətdə böyük rezonans yaratmışdır. Hə, nə deyirsiniz, əziz kitabsevərlər, belə əsərləri oxumağa dəyməzmi?

*– Fariz müəllim, yəqin ki, sizin də diqqətinizi çəkib: kitab mağazalarında niyə türk dilində ədəbiyyatlar üstünlük təşkil edir. Maraq, yoxsa təsadüf?*

–Müzakirə edilməyə dəyər bir mövzuya toxundun, Məcid. Bu gün Azərbaycan dilinə tərcümə olunan xarici ədəbiyyatlar bir çox hallarda üçüncü dildən tərcümə olunur. Bu gün oxucuların xarici ədəbiyyatlara, əksərən türk dilli ədəbiyyatlara üz tutmasının səbəbləri çoxdur. Düzgün tərcümə, mükəmməl dizaynlı nəşrlər və ən əsası da büdcəyə qənaət baxımından türkcə nəşrlərə daha üstünlük verilir. Yaradıcılıq duyumunda istedadın olması, sözlərin seçilməsi, məsuliyyət, çəkilən zəhmət və oxucunu hiss etmək nə qədər böyük rola malikdirsə, tərcümənin yüksək keyfiyyətdə edilməsi də bir o qədər vacib məqamdır. Burada nəşriyyatların üzərinə böyük məsuliyyət düşür. Təəssüflər olsun ki, son dönəmdə Azərbaycan dilində olan kitablarda ciddi redaktə səhvləri və uyğunsuz cümlələrə rast gəlinir. Və yaxud mənəvi tərbiyə baxımından heç bir əhəmiyyəti olmayan bu qəbildən olan kitabların kitab evlərinə sirayəti xoşagələn hal deyil. Adını kitab qoyub yararsız mətnlə oxucunu aldatmaq, bütün ziyalıların, qələm sahiblərinin vicdanını sızlatmalıdır. Təəssüf hissi ilə qeyd edirəm ki, daha çox qazanc əldə etmək üçün səhifəsi 50 qəpiyə kitab tərcümə etdirib, qeyri-ixtisaslı adamlara redaktə etdirib, korrektəni çap maşınına nəzarət edən adamın öhdəsinə buraxan nəşriyyatlar, əslində, öz imzalarına hörmətsizlik edirlər. Halbuki bu istiqamətdə dövlətimizin qəbul etdiyi müəyyən qaydalar var. Xüsusən də nəşriyyat işi haqqında Azərbaycan Respublikasının Qanununun V maddəsində nəşriyyat işinin sərbəstliyindən, sui-istifadənin yolverilməzliyindən bəhs edir. Bununla yanaşı, vicdanlı, dürüst, öz işinin peşəkarı olan nəşriyyat evlərinə rast gəldikdə ürəyimiz dağa dönür. Hətta bəzi nəşriyyatların uğursuz çap prosesi nəticəsində kitabların tez sıradan çıxdığını, vərəqlərinin qopub dağıldığının şahidi olmuşuq. Belə məqamlarda, ədəbiyyat seçimində oxuculara düzgün istiqamət vermək, onları maraq dairəsindən bir qədər kənara çıxıb milli ədəbiyyatımızın bənzərsiz nümunələrini, dünya klassiklərini oxumağa sövq etmək ən əsas məsələlərdəndir. Bunun üçün də kitabçılar satdıqları kitablardan məlumatlı olmalı, tövsiyə etməyi bacarmalıdır. Oxucu hər hansısa kitab barədə sual ünvanladıqda kitabçı dolğun cavab verməli, bədii ədəbiyyata qarşı maraq oyatmağı bacarmalıdır.

*Gəlin ilk əmri oxumaqla başlayan kitablara təzim etməklə ucalmağı bacaraq. Nizaminin sirlərində öyüd, Nəsiminin hüruflarında söz olaq. Aşıq Ələsgərə qoşulub xalq ədəbiyyatında dastan, Ordubadinin qılıncında qələm, dumanında Təbriz, Şəhriyarın Araz həsrətli gözlərində qayıq olaq, Cavidin “İblis”indəki Mələk, Müşfiqin xəyalındakı Xəzər olaq. Hər birimiz bir kitabçı, hər birimiz kitab olaq. Biz oxuyaq onlar desin: “bizi oxu, bizi oxu”.*

**Fariz ƏHMƏDOV**
**Məcid RƏŞADƏTOĞLU**

## ADA Universiteti ilə “Naxçıvan” Universiteti arasında tələbə mübadiləsinə start verilib

Mübadilə proqramı çərçivəsində “Naxçıvan” Universitetinin tələbələri 2023-2024-cü tədris ilində müəyyən müddət ərzində təhsillərini ADA Universitetində davam edə bilərlər. Mübadilə proqramının şərtlərinə əsasən ADA Universitetinə təhsil haqqı ödənilmir. Müsabiqədən keçən tələbələrə həm ADA Universiteti, həm də “Naxçıvan” Universiteti dəstək olacaqdır. Namizədlərin seçimi müsabiqə yolu ilə həyata keçiriləcək. Bu məqsədlə artıq “Naxçıvan” Universitetində müsabiqə komissiyası da yaradılıb.

Təhsil pilləsi: bakalavr səviyyəsi üzrə təhsil alan tələbələr

Əsas şərtlər:

*1. Xarici dil (ingilis dili) biliyi arzuolunan səviyyədə olmalı;*

*2. Təhsil həyatında yaxşı göstəricilərlə fərqlənməli;*

Son müraciət tarixi: 12 sentyabr

Namizədlər “Naxçıvan” Universitetinin Tədris şöbəsinə müraciət edə bilərlər.

### Bildiriş

“Ceyhun” kiçik müəssisəsi öz təşkilatı hüquqi formasını dəyişdirərək “Ceyhun-2023” Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

### İtmişdir

İbrahimova Firəngiz Teymur qızının adına olan Azərbaycan Respublikasının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Püsyan kəndində yaşamış Novruzov İsmayıl Novruz oğlunun adına verilmiş 883A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor müavini: MƏMMƏD BABAYEV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

www.serqqapisi.gov.az

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 528